# Security andregional cooperation system in the Persian gulf

**Rashad Eyyubzadeh**
Institute of Philosophy and Sociology of ANAS, doctoral student. Azerbaijan.
E-mail: rashad.ayyubzada@gmail.com

**Abstract.** The article analyzes the ussies of security and regional co-operation in the Persian Gulf in various aspects. The tense relations between the ragion countries, the efforts for hegemony in the Gulf, the rapid armament, and the preservation of power over energy carriers have been explored. Among the factors affecting the security of the Persian Gulf are the free and secure transportation of energy resources, the intense struggle for power between Sunni and Shiite movements, the existence of territorial disputes between the countries of the region, the threat of the proliferation of weapons of mass destruction and confidence among the regional states.
**Purpose:** to study security and cooperation issues in the Persian Gulf
**Methodology:** systematic and comparative analysis
**Scientific novelty:** the Persian Gulf security and cooperation system has been thoroughly studied, as well as the role of factors influencing these issues has been investigated, and suggestions have been made to address the problem.
**Keywords:** Persian Gulf, security, cooperation, oil factor, energy carriers, interests, politics.

http://dx.doi.org/10.29228/edu.250
**To cite this article:** Eyyubzadeh R. (2020) *Security andregional cooperation system in the Persian gulf.* «Scientific work», Vol. 34, Issue I, pp. 119-127.
**Article history:** Received – 01.01.2020; Accepted – 11.01.2020

# Fars körfəzində təhlükəsizlik və regional əməkdaşliq sistemi

**Rəşad Eyyubzadə**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, doktorant. Azərbaycan.
E-mail: rashad.ayyubzada@gmail.com

**Annotasiya.** Məqalədə Fars körfəzi regionunda təhlükəsizlik və regional əməkdaşlıq sistemi müxtəlif aspektlərdən təhlil olunmuşdur. Region ölkələri arasındakı gərgin münasibət, körfəzdə hegemonluğa səy göstərmə, sürətlə silahlanma, enerji daşıyıcıları üzərində üstünlüyün saxlanması kimi məsələlər araşdırılmışdır. Fars körfəzi regionunun təhlükəsizliyinə təsir edən amillər sırasında enerji resurslarının sərbəst və təhlükəsiz nəqli, sünni və şiə cərəyanları arasında hakimiyyət uğrunda kəskin mübarizə, region dövlətləri arasında ərazi mübahisələrinin mövcudluğu, kütləvi qırğın silahlarının yayılması təhlükəsi və region dövlətləri arasında etimadın zəif olması kimi məsələlər ətraflı öyrənilmişdir.
**Məqsəd:** Fars körfəzində təhlükəsizlik və əməkdaşlıq məsələlərinin öyrənilməsi
**Metodologiya:** sistemli və müqayisəli təhlil

**Elmi yenilik:** Fars körfəzində təhlükəsizlik və əməkdaşlıq sistemi ətraflı öyrənilmiş, bu məsələlərə təsir edən amillərin rolu araşdırılmış, problemin aradan qaldırılması üçün təkliflər irəli sürülmüşdür.
**Açar sözlər:** Fars körfəzi, təhlükəsizlik, əməkdaşlıq, neft amili, enerji daşıyıcıları, maraqlar, siyasət.

http://dx.doi.org/10.29228/edu.250
**Məqaləyə istinad:** Eyyubzadə R. (2020) *Fars körfəzində təhlükəsizlik və regional əməkdaşliq sistemi.* «Elmi əsərlər», № 1 (34), səh. 119-127.
**Məqalə tarixçəsi:** göndərilib –01.01.2020; qəbul edilib – 11.01.2020

## Giriş / *Introduction*

Bipolyar dünya sisteminin çökməsindən sonra beynəlxalq münasibətlər sistemində ciddi dəyişikliklər müşahidə olunmağa başlamışdır. Hər şeydən öncə, beynəlxalq və regional səviyyədə yeni təhlükə ocaqlarının meydana gəlməsi ilə yanaşı, təhlükələrin yeni-yeni formaları da özlərini büruzə verirdi.Həyat fəaliyyətinin bütün sahələrini sürətlə əhatə edən qloballaşma bu təhlükələrin miqyasını daha da genişləndirirdi.Buna müvafiq olaraq zaman keçdikcə təhlükəsizlik anlayışının məzmunu da dəyişməyə başlamışdı.Beynəlxalq münasibətlərin inkişafının hazırkı mərhələsində sülhün və təhlükəsizliyin təmin olunması hələ beynəlxalq təhlükəsizlik məsələlərinin tam həll olunması anlamına gəlmir. Dünyada təhlükəsizliyin klassik məsələləri ilə yanaşı, yeni ciddi problemlər də meydana gəlmişdir ki, bunlar da qloballaşmanın təsiri altında daha da ciddi xarakter almışdır. Belə ki, beynəlxalq terrorizm, kütləvi qırğın silahlarının yayılması, regional silahlanma yarışı, insan alveri, narkotrafik, enerji təhlükəsizliyi, informasiya təhlükəsizliyi, ətraf mühitin mühafizəsi, su çatışmazlığı və s. kimi olduqca ciddi problemlər sürətlə genişlənməyə başlamışdır. Beləliklə, aydın olur ki, bir sıra təhlükəsizlik məsələlərinin həlli hərbi müdaxilə tələb edirsə, bir sıra məsələlər də kompleks yanaşma tələb edir. Bununla əlaqədar olaraq təhlükəsizliyin sərt və yumşaq aspektləri haqqında mülahizələrin irəli sürülməsinə ehtiyac yaranır.

## Əsas hissə / *Main Part*

### Fars körfəzində təhlükəsizlik məsələləri

Fars körfəzində təhlükəsizlik məsələləri kompleks yanaşma tələb edir. Nəzərə almaq lazımdır ki, regionda zəngin enerji resursları mövcuddur və müvafiq olaraq karbohidrogen ehtiyatlarının fasiləsiz olaraq hasil olunması istehlakçı ölkələrə çatdırılması təhlükəsizliyin ən vacib amillərindən biridir. Təhlükəsizliyin bu aspeklərinə riayət olunmasında həm istehsalçı, həm də istehlakçı tərəflər olduqca maraqlıdırlar. Bu, hər şeydən öncə, onunla əsaslandırıla bilər ki, Fars körfəzi dünyanın ən zəngin enerji ehtiyatlarına malik olan ən əhəmiyyətli regionlardan biridır. İkincisi, müvafiq olaraq Fars körfəzi ölkələrinin iqtisadiyyatının birbaşa neft amilindən asılı olması ilə yanaşı burada təbii qazın rolunu da xüsusi qeyd etmək lazımdır. Neft gəlirləri sayəsində region ölkələri iqtisadiyyatlarını şaxələndirməyə çalışırlar. Məsələn, Səudiyyə Ərəbistanı, İran, İraq, Qətər və Birləşmiş Ərəb Əmirlikləri öz iqtisadiyyatlarının müxtəlif sahələrini məhz enerji gəlirləri hesabına stimullaşdırmağa çalışmışlar. Buna baxmayaraq Fars körfəzi regionu ölkələrinin iqtisadiyyatı yenə də əhəmiyyətli dərəcədə enerji resurslarından asılıdır. Bu baxımdan regionun təhlükəsizliyi enerji amili ilə sıx bağlılığını saxlamaqda davam edir. Fars körfəzi regionun təhlükəsizlik sisteminin əsas elementini enerji amilinin təşkil etməsini şərtləndirən əsas məqam bu enerji resurslarının həcmi ilə bağlıdır. Belə ki, regionun enerji ehtiyatlarının həcminin miqyası enerji amilinin aktuallığını daim saxlayır. Regionun

enerji ehtiyatlarının həcminə diqqət yetirməklə enerji amilinin böyük təsiri haqqında daha dolğun təsəvvürlər əldə etmək mümkündür.

Beləliklə, Fars körfəzinin təsdiq olunmuş enerji ehtiyatlarının həcmi 545 milyard barrel təşkil edir. Bu, dünya neft ehtiyatlarının təxminən 45% -ni təşkil edir. Regionun təbii qaz ehtiyatlarının həcmi isə 30,7 trilyon kub metr təşkil edir. İran, Qətər, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri müvafiq olaraq təbii qaz ehtiyatlarının həcminə görə dünyada ikinci, üçüncü, dördüncü və beşinci yerləri bölüşdürürlər.Regiondan sıxılmış qazın əsas ixracatçısı rolunda Qətər və Birləşmiş Ərəb Əmirlikləri çıxış edirlər. Hazırda dünyada istehsal olunan neftin təqribən 24%-i Fars körfəzinin payına düşür. Proqnozlara görə, 2025-ci ilə qədər bu rəqəm 41%-dək yüksələcəkdir. Ümumiyyətlə, Yaxın Şərq və xüsusilə Fars körfəzi dünyanın neft bazarına təqribən gün ərzində 44,6 milyon barrel neft ötürmək potensialına malikdir. Fars körfəzi ölkələri dünya bazarında neftin qiymətinin dəyişməsinə olduqca böyük həssaslıqla yanaşırlar (7,6). Dünya valyuta böhranı və neftin qiymətinin kəskin aşağı düşməsi Fars körfəzi ölkələrinin iqtisadiyyatında ciddi geriləmələrə səbəb oldu. Küveyt Milli Bankı öz hesabatında büdcə kəsirinin ciddi şəkildə dərinləşəcəyi ilə xəbərdarlıq etmişdir. Səudiyyə Ərəbistanının iqtisadiyyatı üçün isə daha ciddi problemlər yaranmışdır. Çünki Səudiyyə Ərəbistanının iqtisadiyyatının 60%-i neft gəlirlərindən asılıdır. Beləliklə, neftin qiymətində hətta ən cüzi dəyişiklik belə region ölkələrinin iqtisadiyyatına və valyuta gəlirlərinə ciddi təsir edir.

Neftin qiymətinin sabit saxlanması Fars körfəzi dövlətlərinin əsas təhlükəsizlik məsələlərindən biridir.Lakin müşahidələr açıq-aşkar göstərir ki, region ölkələrinin məsələyə vahid yanaşmaları olmadığından, OPEK ölkələri enerji bazarında qiymətlərin tənzimlənməsi istiqamətində fəaliyyətini tam effektiv koordinasiya edə bilmirlər. Məsələn, İran dəfələrlə neft hasilatının xeyli aşağı salınması təklifi ilə çıxış etsə də uzun müddət digər region dövlətlərinin dəstəyini ala bilməmişdir. İranın məqsədi neftin qiymətini 100 dollar civarında saxlamağa nail olmaqdan ibarət idi. İrana dəstək olmamağın səbəbi, təbii ki, həm də geosiyasi amillərlə bağlıdır.Belə ki, neftin yüksək qiyməti İrana əlavə böyük maliyyə axınını təmin edə bilərdi (7, 19).Regionda ciddi təsir imkanlarına malik olan ABŞ İranın maliyyə resurslarının artmasını qəbul etmir. Çünki İran regionda özünün təsir imkanlarını genişləndirməklə ABŞ-ın mövqelərini real olaraq zəiflətməyə çalışır.Təbii ki, İranın regionda güclənməsi digər region dövlətlərinin də maraqlarına cavab vermir.Belə ki, Səudiyyə Ərəbistanı neftin qiymətinin dünya enerji bazarında ciddi şəkildə aşağı düşməsinə baxmayaraq neft hasilatını artırır. Hesab etmək olar ki, neftin qiymətinin aşağı düşməsini şərtləndirəcək addımların atılması həm də İrana və Rusiyaya qarşı strateji addım olmuşdur. Qlobal Enerji Tədqiqatları Mərkəzinin hesablamalarına əsasən Səudiyyə Ərəbistanın iqtisadiyyatı üçün neftin qiymətinin 60 dollar civarında qalması tələb olunur(1, 21). Bu da ondan xəbər verir ki, region dövlətlərinin iqtisadiyyatları arasında ciddi fərq mövcuddur. Məsələn, Birləşmiş Ərəb Əmirlikləri nəhəng tikinti layihələrini həyata keçirdiyi halda, İraqda ciddi maliyyə sıxıntıları yaşanmaqdadır.

Nəzərə almaq lazımdır ki, Fars körfəzi regionunun enerji resursları ABŞ, Rusiya, Avropa İttifaqı, Çin və Hindistan kimi subyektlərin ciddi diqqət mərkəzindədir. Bu ölkələrin hər biri regionun enerji sektorunda öz mövqelərini möhkəmləndirməyə çalışır. ABŞ regionun enerji resurslarının həcmini və əhəmiyyətini real qiymətləndirərək, bu regionu özünün milli maraqları zonası elan etmişdir.Qeyd etmək lazımdır ki, ABŞ-ın regiondakı maraqları təkcə neftin qiymətinin aşağı həddə saxlanılması və ABŞ şirkətlərinin böyük müqavilələr əldə etmələri ilə bağlı deyildir (7, 47). ABŞ həmçinin, enerji resurslarının regiondan sərbəst nəqlinin təmin olunmasından əmin olmaq istəyir. Qlobal iqtisadiyyat artıq bir neçə onillikdir ki, aşağı neft qiymətlərinə əsaslanır. Vəziyyətin dəyişməsi dünya iqtisadi böhranını qaçılmaz etmişdir. Enerji təhlükəsizliyi həm də İran-ABŞ qarşıdurmasının əsas amili rolunda çıxış edir. İran dəfələrlə bildirmişdir ki, ona qarşı hərbi əməliyyatların başlayacağı təqdirdə Fars körfəzindən keçən enerji nəqli marşurutlarını bağlayacaqdır. İranın belə bir addım atması dünya iqtisadiyyatına olduqca böyük zərbə vuracaqdır. Enerji təhlükəsizliyinin region ölkələrinin iqtisadiyyatı üçün stabilləşdirici rolunda çıxış etməsinə baxmayaraq, bir sıra ölkələr bu amildən özlərinin siyasi məqsədləri üçün istifadə etməyə çalışırlar. Məsələn, bu mənada İranı ayrıca

qeyd etmək lazımdır.Lakin bununla yanaşı nəzərə almaq lazımdır ki, İran özünə qarşı hərbi və siyasi hücumları neytrallaşdırmaq üçün enerji faktorundan kifayət qədər fəal istifadə etməyə çalışır (2).

Fars körfəzi regionunun təhlükəsizliyi haqqında danışarkən bir məsələni diqqətdən kənarda qoymaq olmaz.Belə ki, regionda həllini tapmayan münaqişələr regionun təhlükəsizlik sisteminə olduqca ciddi təhdid yaradır. Belə münaqişələr Qətərlə Bəhreyn, Qətərlə Səudiyyə Ərəbistanı, İranla İraq, İranla Birləşmiş Ərəb Əmirlikləri, Küveytlə İraq, Omanla Səudiyyə Ərəbistanı arasında mövcud olmaqdadır. Bu münaqişələr içərisində daha mürəkkəbi İranla Birləşmiş Ərəb Əmirlikləri arasında baş vermişdir. İranla Birləşmiş Ərəb Əmirlikləri arasında Böyük Tomb, Kiçik Tomb və Əbu Musa adaları ilə bağlı mübahisə regional təhlükəsizlik sistemi üçün kifayət qədər ciddi təhdid yaradır. Birinci iki ada İranın nəzarəti altında, üçüncü ada isə Birləşmiş Ərəb Əmirliklərinin nəzarətindədir. Bu üç ada məsələsi böyük strateji əhəmiyyət kəsb edir. Belə ki, bu adalar arasından yeganə beynəlxalq su yolu keçir. Qeyd edək ki, bununla bağlı tərəflər arasında 1971-ci ildə razılaşma da imzalanmışdır (8). Göründüyü kimi, bu adalar sayəsində körfəzdən keçən bütün tranzit yollarını nəzarətdə saxlamaq mümkün olur. İranla BƏƏ arasında mübahisə isə Böyük Britaniyanın öz koloniyalarını 1971-ci ildə tərk etməsindən sonra başlamışdır. Həmin dövrdə İran BMT Təhlükəsizlik Şurasında adalar üzərində öz hüququnun tanınmasına nail ola bilmişdir. Buna baxmayaraq hazırkı mərhələdə reallıq ondan ibarətdir ki, ərəb ölkələri tam olaraq BƏƏ-nin mövqelərini dəstəkləyirlər. Ərəb ölkələri hesab edirlər ki, İran adalar üzərində öz nəzarətini saxlamaqla regionda dominantlığını qorumağa çalışır. İran tərəfi demək olar ki, adalar üzərində tam və həmişəlik nəzarətinin təmin olunması uğrunda mübarizə aparacağını bəyan edir. İran əsaslandırmağa çalışır ki, bu adalar İranın qitə ərazilərinin davamıdırlar və ölkənin digər şəhər və yaşayış məntəqələrindən heç nə ilə fərqlənmir (8). Buna görə də İran adaları heç kimlə bölüşməyəcəkdir. Aralarındakı ərazi mübahisəsinə və iddialarına baxmayraq İranla BƏƏ arasında kifayət qədər sıx ticarət əlaqələri mövcuddur. Hələ 2007-ci ilin mayında İran prezidenti Əhmədinejad BƏƏ-yə rəsmi səfər etmişdir. Bu səfər zamanı prezident adalar məsələsini, ümumiyyətlə, müzakirə etməmişdir. Bu da onu göstərir ki, İran BƏƏ ilə ticarət əlaqələrinin səviyyəsinin qorunub saxlanılmasında maraqlıdır (8). Bundan əlavə, İran həm də sübut etməyə çalışırdı ki, regionda heç də dominantlıq etmək fikrində deyil. Deməli, İran ümumilikdə regional əməkdaşlıq sisteminin effektiv olmasında maraqlıdır. İran həm də sübut etməyə çalışır ki, nüvə proqramı heç də region dövlətlərinə qarşı yönəlməmişdir.

Yuxarıda qeyd olunanlarla yanaşı, İran üçün tərəflər arasındakı münasibətlərin daha bir strateji aspekti vardır.Məsələ burasındadır ki, İran Qərbdən idxalın əsas hissəsini Türkiyə və İraq vasitəsi ilə deyil, məhz Birləşmiş Ərəb Əmirlikləri vasitəsi ilə alır. İranda belə vəziyyəti olduqca təhlükəli hesab edirlər.Belə ki, BMT tərəfindən sanksiyaların tətbiq olunacağı təqdirdə İran idxalın əhəmiyyətli hissəsindən məhrum olacaqdır. Sonrakı mərhələdə bu qənaət özünü müəyyən mənada doğrultmuşdur. Bu baxımdan, İran BƏƏ ilə münasibətlərə xüsusi həssaslıqla yanaşmışdır. İran tərəfi BƏƏ ilə münasibətləri strateji cəhətdən əhəmiyyətli hesab edir.

**Regional təhlükəsizliyə təsir edən amillər**

Fars körfəzinin regional təhlükəsizliyi problemi ətrafında müzakirələr apararkən digər vacib amili unutmaq olmaz. Belə ki, regional təhlükəsizliyə təsir edən ən mühüm amillərdən biri də İslamın sünni və şiə təriqətləri arasındakı rəqabətdir. ABŞ-ın İraqa hərbi müdaxiləsi zamanı burada sünni hakimiyyətinə son qoyulmuşdur (BƏƏS partiyası İraqın siyasi hakimiyyətindən tamamilə məhrum edilmişdir). Bu da bütövlükdə regionda şiələrin vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasını təmin etmişdir. İraqın da şiə əhalisinin siyasi aktivliyi nəzərə çarpacaq dərəcədə artmışdır. Bütövlükdə, Yaxın Şərqdə şiələrin mövqeləri əhəmiyyətli dərəcədə möhkəmlənmişdir. Belə bir vəziyyət ABŞ-ın və regionun ərəb ölkələrinin diqqətindən kənarda qalmamışdır. Əslində, əsasən sünnilərdən ibarət olan ərəb ölkələri regionda şiələrin mövqelərinin möhkəmlənməsini İranın strateji qələbəsi kimi qiymətləndirirlər. İordaniya kralı Abdulla şiələrin mövqelərinin güclənməsini obrazlı şəkildə regionda "şiə yarımayının" formalaşması kimi təsəvvür etmişdir (4). Bu "yarımay" öz başlanğıcını İrandan götürərək Livan, İraq və Bəhreynə qədər genişlənir. Bu ölkələrin də hazırda

əhalisinin böyük qismini şiələr təşkil edirlər. "Şiə yarımayı" konsepsiyasının ABŞ siyasi dairələrinin diqqət mərkəzinə keçməsində Livanda hizbullahın mövqelərinin ciddi şəkildə güclənməsi həlledici rol oynamışdır. Həmçinin, artıq qeyd edildiyi kimi, İraqda şiələrin siyasi mövqelərinin güclənməsi və rolunun artması da şiə məsələsinə diqqətin daha çox artırılması ilə bağlıdır. Regionda, ümumilikdə, şiələrin mövqelərinin güclənməsi İranın siyasi təsir imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Səudiyyə Ərəbistanının ABŞ-dakı keçmiş səfiri şahzadə Faysal açıq şəkildə bəyan etmişdir ki, onun ölkəsi İranın İraqda mövqelərinin güclənməsindən və təsir imkanlarının artmasından narahatdır. Belə ki, onun fikrincə, İran İraqda özünə oxşar rejim yaratmağa çalışır (8). İraqda şiələrin siyasi aktivliyinin artması digər ərəb ölkələrində yaşayan şiələrin də fəallığının artmasına və mövqelərinin güclənməsinə şərait yaradır. Şiələrin mövqelərinin güclənməsi müvafiq olaraq sünnilərin mövqelərinin zəifləməsi deməkdir. Deməli, ümumilikdə, ərəb ölkələri İran qarşısında daha zəif duruma düşmüşlər. Ərəb ölkələrini də narahat edən əsas məqam məhz bundan ibarət olmuşdur. Çünki İran gücləndikcə, şiələrin yaşadığı ərəb ölkələrində dayaqlarını möhkəmləndirir və onların daxili siyasi həyatlarında müəyyən rol oynamağa çalışır.

**Fars körfəzi regionunda enerji amili təhlükəsizlik probleminin əsas elementi kimi**

Fars körfəzi regionunda enerji amili təhlükəsizlik probleminin əsas elementlərini formalaşdırsa da, regionda cərəyan edən digər geosiyasi proseslər də bu kontekstdən ciddi əhəmiyyət kəsb edir. Təbii ki, bütün proseslərin hərəkətverici qüvvəsi rolunda yenə də enerji amili çıxış edir. ABŞ və onun yaxın müttəfiqi olan Böyük Britaniyanın regionda təhlükəsizlik probleminə baxışları demək olar ki, eynidir. Hər iki dövlət regiondan enerji resurslarının sabit və təhlükəsiz şəkildə nəqlində maraqlıdırlar və müvafiq olaraq təhlükəsizlik problemini də bu kontekstdə nəzərdən keçirirlər. Məhz enerji ətrafında cərəyan edən mühüm proseslərdən biri də regionda sürətli silahlanmadır. Bundan başqa, kütləvi qırğın silahlarının meydana gəlməsi ehtimalları da getdikcə daha da güclənməkdədir. Ərəb ölkələri də regionda kütləvi qırğın silahlarının meydana gəlmə ehtimallarını ciddi narahatlıqla nəzərdən keçirirlər. Bu mənada İrana ən təhlükəli rəqib kimi baxılır. Küveyt və Birləşmiş Ərəb Əmirlikləri dəfələrlə bəyan etmişlər ki, Fars körfəzi regionu nüvə silahından azad bir region olmalıdır. Bu müstəvidə İranın "nüvə dosyesi" məsələsi xüsusi problemlərdən biri kimi qiymətləndirilir. Məlumdur ki, İranın nüvə xammalı əldə etmək istəkləri təkcə region dövlətlərində deyil, bütövlükdə dünyanın aparıcı dövlətlərində ciddi narahatlıqlar yaradır. Bu mənada ABŞ və Böyük Britaniyanı xüsusi qeyd etmək lazımdır. Təsadüfi deyildir ki, İrana qarşı beynəlxalq kampaniyanın əsas hərəkətverici qüvvəsi rolunda məhz ABŞ və Böyük Britaniya çıxış etmişdir. 2005-ci ilin noyabrında Dohada Fars körfəzi regionunda təhlükəsizliyin təmin olunmasında NATO-nun rolu məsələsi müzakirə olunmuşdur. Bu müzakirələr zamanı İranın nüvə proqramı həm region, həm də dünya üçün əsas problemlərdən biri kimi qiymətləndirilmişdir. İranın qonşu dövlətləri belə hesab edirlər ki, Buşer AES-də qəza baş verə bilər və bu da regionda olduqca ciddi fəlakətlərə səbəb ola bilər. Buna cavab olaraq İran Xarici İşlər Nazirliyi Buşer AES-in MAQATE-nin təminatı altında fəaliyyət göstərəcəyini bildirmişdir (4). Əslində, İrana qarşı belə kampaniya təhlükəsizlik problemlərindən daha çox siyasi motivlərlə bağlı idi. Belə ki, İranın regionda nüvə obyektinə malik olması onun mövqelərinin əhəmiyyətli dərəcədə güclənməsini təmin edir. Təbii ki, İranla yaxın müttəfiqlik münasibətlərində olan Rusiyanın region üzərində təsir imkanlarının genişlənməsi ehtimalları da ciddi nəzərdən keçirilir. Nəzərə almaq lazımdır ki, Rusiya SSRİ-nin siyasi və hüquqi varisi olmaqla, həm də Fars körfəzi regionunda ənənəvi maraqlara malikdir. Dünyanın ən böyük enerji istehsalçılarından biri olmaqla Rusiya regiondakı enerji sektorunun vəziyyətini daim izləmək imkanına malik olmaq istəyir. Çünki regionun enerji sektorunun vəziyyəti bütövlükdə dünyanın enerji bazarının vəziyyətini müəyyənləşdirir. Rusiya bu vəziyyətə uyğun davranmaq və ya vəziyyəti bu və ya digər səviyyədə özünün maraqlarına uyğunlaşdırmaq üçün mütləq burada ciddi dayaqlara malik olmalıdır. Belə dayaq rolunda isə əsasən İran çıxış etməkdədir. Bu baxımdan hesab etmək olar ki, İrana qarşı siyasi, iqtisadi və hərbi kampaniyanın hədəfində həm də Rusiya amili dayanmaqdadır.

Artıq qeyd edildiyi kimi, regionda sürətli silahlanma yarışı getməkdədir və bu da regional təhlükəsizlik sistemi üçün ciddi təhlükə yaradır. Sürətli silahlanma region dövlətləri arasında qarşılıqlı etimadı da ciddi şəkildə zəifledir. Son dövrlərdə region dövlətləri arasında az qala açıq silahlı toqquşmaların baş verməsi də bunu əyani şəkildə təsdiq edir. İranın nüvə proqramı ərəb ölkələrinin bu ölkəyə olan etimadını ciddi şəkildə azaltmışdır (5). Digər tərəfdən ərəb ölkələrinin açıq düşmən münasibəti İranı özünün hərbi arsenalını daha gücləndirməyə vadar edir. Bu, dövlətlər arasında gərgin atmosferi daha da gücləndirir. Regionda külli miqdarda silah-sursatın cəmləşməsi onların terrorçu qruplaşmaların əlinə keçmə ehtimallarını da gücləndirir ki, bu da regional və beynəlxalq təhlükəsizlik üçün əlavə ciddi təhdidlər yaradır.

İran hərbi balansı saxlamaq, bir çox hallarda isə özünün üstün mövqelərini təmin etmək üçün Rusiya ilə hərbi-texniki əməkdaşlığını davamlı olaraq inkişaf etdirir. Məsələn, İran Rusiyadan xeyli silah-sursat, üç ədəd sualtı qayıq almışdır ki, bu da Qərbdə böyük narazılığa səbəb olmuşdur (3). Hazırda İran öz resursları hesabına sualtı qayıq inşa edə bilir. Təbii ki, Rusiyanın müəyyən dəstəyinin olduğunu da nəzərə almaq lazımdır. Rusiya İrana 700 milyon dollar dəyərində "yer-hava" tipli raketlərinin satılmasına razılıq vermişdir. Bu raketlərdən əsasən İranın nüvə obyektlərinin yerləşdiyi rayonlarda istifadə olunması nəzərdə tutulmuşdur. Bu məqamda qeyd etmək lazımdır ki, Rusiya regionun digər ölkələri ilə də hərbi-texniki sahədə əməkdaşlıq etməkdə maraqlıdır. Artıq qeyd edildiyi kimi, Rusiyanın regionda ciddi mövqelərə malik olmasını onun geosiyasi prioritetləri tələb edir. Belə ki, Rusiya həmçinin Birləşmiş Ərəb Əmirlikləri ilə də hərbi sahədə yaxından əməkdaşlıq etmək səylərini əsirgəməmişdir (5). Səudiyyə Ərəbistanı da öz növbəsində Qərbdəki müttəfiqləri ilə hərbi əməkdaşlığa daha çox üstünlük vermişdir. Məsələn, Səudiyyə Ərəbistanı Böyük Britaniyadan 9 milyard dollar dəyərində 72 ədəd hərbi təyyarə almışdır. Göründüyü kimi, regionda silah bazarı kifayət qədər dinamik inkişaf etməkdədir. Çin isə öz növbəsində bu bazarda ciddi mövqelərə sahib olmağa çalışır. Çinlə İran arasında hərbi əməkdaşlıq daha sürətlə inkişaf etmişdir. Belə ki, Çin çox fəal şəkildə İranı müxtəlif hərbi texnika və sursatla təchiz etmişdir və bu əməkdaşlıq bu gün də davam etməkdədir. Bəhreyndə, Qətərdə və Səudiyyə Ərəbistanında hərbi bazalara malik olan ABŞ isə dövri olaraq regionda hərbi təlimlər keçirir. Bu hərbi təlimlərin əsasən İrana siqnal xarakteri daşıdığını qeyd etmək olar. Belə ki, ABŞ İrana göstərmək istəyir ki, regional siyasətə hərbi müdaxilə müvafiq qaydada cavablandırılacaqdır. İran da öz növbəsində belə çağırışlara hazır olduğunu nümayiş etdirir. Belə ki, İran genişmiqyaslı hərbi təlimlər həyata keçirməklə bir növ özünün cavab reaksiyasını nümayiş etdirir. Əksər hallarda isə İran ABŞ-ın regionda hərbi təlimlərindən dərhal sonra cavab təlimlərini təşkil etmişdir. Qeyd etmək lazımdır ki, Böyük Britaniya da regionda təşkil olunan hərbi təlimlərdə kifayət qədər fəallıqla iştirak edir. Məsələn, belə təlimlərdən ən böyüyü kimi bir neçə il öncə təşkil olunmuş hərbi təlimi xüsusi qeyd etmək lazımdır. Böyük Britaniyanın birbaşa təşkil etdiyi bu təlimdə Omana 6000–dən artıq əsgər, 24 hərbi gəmi, 2 sualtı qayıq və 30 hərbi təyyarə göndərilmişdir. Belə hərbi təlimlər adətən ikili nəticələr doğurmuşdur. Birincisi, ABŞ və Böyük Britaniya bununla regionda mövqelərini möhkəmləndirməyə və strateji maraqları uğrunda mübarizəyə hazır olduqlarını nümayiş etdirirlər (8). İkincisi, İran bu tədbirləri, bir qayda olaraq, özünə qarşı siqnal kimi də qəbul etmişdir. Buna görə də davamlı olaraq özünün hərbi potensialını gücləndirməyə çalışmışdır. Məsələn, İranın sınaqdan çıxardığı raketlər Türkiyə, İsrail, Ərəb yarımadasını, Əfqanıstanı və Pakistanı nəzarət altında saxlamağa imkan vermişdir.

Yuxarıda nəzərdən keçirilən məqamlardan aydın görünür ki, Fars körfəzi regionunun təhlükəsizliyi ciddi təhdid qarşısındadır. Region dövlətlərinin aktiv şəkildə silahlanması burada silahlı toqquşma ehtimallarını gücləndirir və belə toqquşmaların dağıdıcı xarakteri haqqında təsəvvür formalaşdırır. Bundan başqa, regionda sistemli şəkildə hərbi təlimlər keçirilir ki, bu təlimlərdə region dövlətləri ilə yanaşı, həm də burada strateji maraqları olan kənar dövlətlər də iştirak edirlər. Kənar güclərin maraqları isə əksər hallarda region dövlətlərinin maraqları ilə ziddiyyət təşkil edir. Əlavə olaraq həm də nəzərə almaq lazımdır ki, sistemli hərbi təlimlərin keçirilməsi, regionun ekoloji vəziyyətinə də ciddi mənfi təsir göstərir. Təsadüfi deyildir ki, bu gün Fars körfəzi ekoloji cəhətdən ən

çirkli regionlardan biri hesab olunur. Deməli, silahlanma yarışması və sistemli hərbi təlimlər ətraf mühitin qorunması problemini əhəmiyyətli dərəcədə mürəkkəbləşdirir.

**Fars körfəzi regionunda ciddi təhlükə mənbələri**

Fars körfəzi regionu həm də Yaxın Şərq regionunun bir hissəsi kimi nəzərdən keçirilir. Yaxın Şərq regionu üçün isə əsasən aşağıdakı istiqamətlərdə ciddi təhlükə mənbələri mövcuddur:

-terrorizm

-narkotik alveri

-çirkli pulların yuyulması və trafiki (3).

Bunlar olduqca ciddi təhlükə mənbələridir və regional təhlükəsizlik sisteminin funksionallığını ciddi şəkildə əngəlləyirlər. Yaxın Şərq regionunun bir hissəsi kimi yuxarıdakı təhlükələri Fars körfəzinə də şamil etmək olar. Müasir mərhələdə bu təhlükə istiqamətləri sıx qarşılıqlı bağlılığa malikdirlər və demək olar ki, bütün region dövlətlərinin qarşısında ciddi problem olaraq qalmaqdadırlar. Təsadüfi deyildir ki, hazırda regionun ən aktual problemi beynəlxalq terrorizmlə mübarizədən ibarətdir. Regionda beynəlxalq terrorizmə qarşı effektiv mübarizə aparmaq imkanları bu amillərin təsiri altında xeyli məhduddur. Belə ki, birincisi, "terrorizmin" mahiyyətinə dair ən müxtəlif yanaşmalar mövcuddur. Hesab edirəm ki, belə müxtəliflik məqsədli şəkildə təmin olunur. Belə ki, dünyanın aparıcı dövlətləri öz maraqlarına uyğun şəkildə terrorizmlə mübarizə aparmağa üstünlük verirlər. Yəni, hansısa terrorçu təşkilatına qarşı mübarizə aparmaq maraqlara cavab vermirsə, onda bu terrorçu təşkilata münasibətdə tamam fərqli yanaşma tətbiq olunur. Məsələn, belə təşkilat terrorçu təşkilat kimi deyil, azadlıq uğrunda mübarizə aparan təşkilat kimi təqdim oluna bilər. Belə yanaşma əsasən ABŞ və Böyük Britaniya tərəfindən tətbiq olunur. Hətta bir sıra hallarda öncə terrorçu kimi tanınan təşkilat sonradan müttəfiq kimi nəzərdən keçirilir. Məsələn, Kosova Azadlıq Ordusu ABŞ tərəfindən terrorçu təşkilatlar siyahısına daxil edilsə də, sonra Ağ Evlə bu təşkilat arasında müttəfiqlik münasibətləri formalaşmışdır. Fars körfəzində dərin problemləri şərtləndirən vacib məqamlardan biri də məqsədli şəkildə "islamla" "terrorizmin" eyniləşdirilməsidir. Artıq ictimai şüurda belə yanaşma özünə ciddi yer almışdır. Bu istiqamətdə Qərbin KİV-nin olduqca təsirli rolu olmuşdur. Xüsusilə, 2001-ci il 11 sentyabr hadisəsindən sonra belə bir rəy formalaşdırılırdı ki, İslam terrorizm üçün münbit şərait yaradır. Təbii ki, belə əsassız təbliğat İslam dininin nümayəndələri üçün ciddi təhqir kimi qarşılanırdı. Halbuki terrorizmdən ən çox əziyyət çəkən məhz İslam ölkələri olmuşdur. Çünki İslam ölkələrində terrorçu təşkilatların olması elə bu ölkələrin əhalisi üçün ciddi təhlükə yaradırdı. Belə təşkilatların məhz İslam dövlətlərində yaranması və fəaliyyət göstərmələri də əksər hallarda Qərb dövlətləri tərəfindən dəstəklənirdi. Məsələn, Əl-Qaidə ilə ABŞ arasında şübhəli əlaqələr haqqında mətbuatda zaman-zaman informasiyalar getmişdir. İraqda müharibə və Ərəb İsrail münasibətlərindəki gərginlik regionda terrorçu təşkilatların fəallaşmasını şərtləndirən əsas amillərdən biri olmuşdur. Bu iki münaqişə terrorizm ideyalarının meydana gəlməsi üçün sosial-iqtisadi, dini və mədəni-psixoloji motivləri generasiya etmişdir. Məhz bu münaqişələrdən sonra müsəlmanların terrorçu təşkilatlarına simpatiyalarının artması müşahidə olunmuşdur. Bunu yüksək vəzifəli ərəb siyasi xadimləri də səsləndirirdilər. Onların fikrincə, münaqişələr ekstremist ideyaların tətbiqinin genişlənməsinə əsas vermişdir. Artıq qeyd edildiyi kimi, beynəlxalq terrorizm problemi birbaşa qanunsuz silah alveri, narkotik alveri, çirkli pulların yuyulması ilə bağlıdır. Bunlar terrorun həyata keçirilməsi üçün müvafiq maliyyə bazasının yaradılmasını təmin edir. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin rəsmi statistikasına görə demək olar ki, bütün region dövlətlərində insan alveri, narkotik alveri, çirkli pulların yuyulması, qanunsuz silah alveri xeyli yayılmışdır (6). Beləliklə, Ərəb Ölkələri Liqası, İslam Əməkdaşlıq Təşkilatının olmasına baxmayaraq regionda təhlükəsizlik sisteminin effektivliyindən danışmaq çətindir. Nəzərə almaq lazımdır ki, bu təşkilatlar regionda əməkdaşlığı və təhlükəsizliyi təmin etmək istiqamətində çalışırlar. Buna baxmayaraq bu istiqamətdə real nəticələrdən danışmaq üçün ciddi əsaslar yoxdur. Bütün hallarda regionun zəngin enerji ehtiyatları burada cərəyan edən bir sıra mürəkkəb proseslərin əsas elementi rolunda çıxış edir. Belə ki, demək olar ki, bütün gərgin proseslər enerji amili ilə bağlıdır.

Beləliklə, yuxarıda apardığımız təhlillərə yekun vuraraq bir daha əsaslandırmaq olar ki, Fars körfəzi dünyanın ən strateji regionlarından biridir. Bununla yanaşı, onu təhlükəsizlik baxımından həm də dünyanın ən kövrək regionu kimi təqdim etmək olar. Fars körfəzi regionunun təhlükəsizliyinə bir sıra ciddi amillər təsir edirlər. Bu amillər sırasında aşağıdakıları xüsusi qeyd etmək olar:

-enerji resurslarının sərbəst və təhlükəsiz nəqli

-region dövlətləri arasında ərazi mübahisələrinin mövcudluğu

-kütləvi qırğın silahlarının yayılması təhlükəsi

-region dövlətləri arasında etimadın zəif olması(9).

Regionda vəziyyəti gərginləşdirən təsirli amillərdən biri də kənar güclərin regional siyasətə yaxından qarışmalarıdır. Kənar güclərin regiondakı geosiyasi və geoiqtisadi maraqları əksər hallarda regional dövlətlərin maraqları ilə uzlaşmır. Bu da əlavə gərginliyin meydana gəlməsini şərtləndirir. Bunlardan başqa regionda bütün region dövlətlərinin daxil olduğu vahid bir beynəlxalq təşkilatın olmaması da gərginliyin artmasına təkan verir. Belə bir təşkilatın olması region dövlətləri arasında etimadın yaranmasını şərtləndirər və təhlükəsizlik sisteminin daha effektiv olmasını təmin edərdi.

## Nəticə / *Conclusion*

Ümumiyyətlə, regionda terrorizm potensialının yüksək olması, maraqlı dövlətlərin regional silah bazarının inkişafında yaxından iştirak etməsi təhlükəsizlik məsələlərinin həllini çətinləşdirir. Fars körfəzinin təhlükəsizlik probleminə Qərbin, xüsusilə ABŞ və Böyük Britaniyanın yanaşma tərzləri də ziddiyyətlidir. Belə ki, artıq qeyd edildiyi kimi ABŞ-ı və Böyük Britaniyanı maraqlandıran əsas məsələ regionun enerji daşıyıcılarının sərbəst və təhlükəsiz şəkildə nəql olunmasıdır. Təbii ki, belə bir istiqamətli yanaşma digər məsələlərin diqqətdən kənarda qalmasına səbəb olmuşdur. Belə ki, ümumilikdə region dövlətlərinin maraqlarının tam nəzərə alınmadığı bir şəraitdə təbii ki, regional təhlükəsizlik məsələləri açıq elementlərlə zəngin olacaqdır. Regional təhlükəsizlik məsələsinə kompleks yanaşmanın sərgilənməsi, regionun davamlı olaraq silah və texnika ilə təchiz olunmasının qarşısının alınması, regional dövlətlər arasında qarşılıqlı etimadın yaradılması bütövlükdə regionun təhlükəsizlik sisteminin effektiv fəaliyyəti üçün təsirli olardı. Bütün bunların əksinin müşahidə olunması Fars körfəzi regionunda münaqişə potensialının güclü olaraq qalmasına şərait yaradır.

## Ədəbiyyat / *References*


1. Bergsten C. F. America and Europe: Clashofthe Titans?// Foreign Affairs, March-April 2012.
2. Brunode Paiva. Straitof Hormuz: globally significantasever —analysis // Eurasiareview. News and analysis. Availableat: http://www.eurasiareview.com/21042014-strait-of-hormuz-as-ever-analysis (müraciət tarixi: 24.10.19)
3. Collins M. D. The Iranian Submarines: A New Naval Arms Race? URL: http:// www. wrmea. Com / backissues / 9212040. html (müraciət tarixi: 10.12.2019)
4. Doug Tuttle. Research Assistant. Fueling the Arms Race in the Middle East. January 28, 2018. URL: http:// www.cdi.org/ program/ document.cfm?DocumentID=4194&from_page=/-index.cfm (müraciət tarixi: 10.08.2019)
5. Norton-Taylor R. Iran and the US: from words to war. The Guardian. 2018, http:// www. guardian. co. uk / commentisfree / cifamerica-iran-us-intelligence-war (müraciəttarixi: 25.09.2019)
6. Jedinia M. Winning Over the Neighbours. Tehran, 5 March, 2017. URL: http:// mianeh.net/ en/ articles/ ?aid=42 (müraciət tarixi: 10.12.2019)
7. Kristol W., Kagan R. National interest and globalresponsibility. The Neoconreader. Groove Press, 2014

8. Wintour P.Cameron changes foreign policy tackamid shiftingsands of the Middle East://The Guardian, 2011, MarchURL: http: // www. guardian. co. uk/ politics /2011/ mar/ 01/ foreign policy-libya (müraciət tarixi: 25.05.2019).
9. https: // news. rambler. ru/ middleeast/ 38774719/? utm_content=rnews&utm_medium=read_more&utm_source=copylink

# Безопасность и система регионального сотрудничества в Персидском заливе

**Решад Эйюбзаде**
Институт философии и социологии НАНА, докторант. Азербайджан.
E-mail: rashad.ayyubzada@gmail.com

**Резюме.** В статье анализируются вопросы безопасности и регионального сотрудничества в Персидском заливе с разных сторон. Были исследованы напряженные отношения между странами рагиона, усилия по гегемонизации Залива, быстрое вооружение и сохранение власти над энергоносителями. В число факторов, влияющих на безопасность Персидского залива, входят бесплатная и безопасная транспортировка энергоресурсов, интенсивная борьба за власть между суннитскими и шиитскими движениями, наличие территориальных споров между странами региона, угроза распространения оружия массового уничтожения и доверие между государствами региона.
**Цель:** изучить вопросы безопасности и сотрудничества в Персидском заливе.
**Методология:** системный и сравнительный анализ
**Научная новизна:** система безопасности и сотрудничества в Персидском заливе была тщательно изучена, также как и роль факторов, влияющих на эти проблемы, и были внесены предложения по решению этой проблемы.
**Ключевые слова:** Персидский залив, безопасность, сотрудничество, нефтяной фактор, энергоносители, интересы, политика.